Azərbaycan Xalq Parlamenti
Azerbaijan Popular Parliament
Address: Braamberg 164, Nederland Phone: +4915205921770 e-mail: press@azxp.info Web: www.azxp.info
2905 BJ Capelle aan den IJssel

**Azərbaycan Xalq Parlamenti**

**Avropa Parlamentinin 18.12.2025-ci il tarixli Qətnaməsi barədə**

# BƏYANAT

**Azərbaycan Xalq Parlamenti**, Avropa Parlamentinin 18 dekabr 2025-ci il tarixli “**Azərbaycan alimləri Bəhruz Səmədov və İqbal Abilovun əsassız həbsi və məhkum edilməsi barədə**” qətnaməsini yüksək məmnunluqla qarşılayır və bu sənədi ölkəmizdə insan hüquqlarının bərpası, demokratiyanın inkişafı və siyasi məhbus probleminin həlli istiqamətində mühüm beynəlxalq hüquqi-siyasi addım kimi qiymətləndirir.

Avropa Parlamentinin **siyasi məhbusların azad olunması**, akademik azadlıqların **müdafiəsi və siyasi repressiyaların dayandırılması** ilə bağlı qaldırdığı məsələlər ölkədə mövcud vəziyyətin beynəlxalq aləmdə obyektiv şəkildə qəbul edildiyini təsdiq edir. Bu baxımdan Azərbaycan Xalq Parlamenti qətnamədə öz əksini tapan prinsip və çağırışları tam dəstəkləyir.

Azərbaycan Xalq Parlamenti Avropa Parlamentinin qətnaməsini **təqdir edir** və onu Azərbaycanın həqiqi demokratik gələcəyi üçün beynəlxalq həmrəyliyin mühüm ifadəsi hesab edir. Qətnamədə qeyd edilən faktlar ölkədə **repressiv idarəçilik** modelinin ifşası baxımından xüsusi əhəmiyyət daşıyır.

Azərbaycan Xalq Parlamenti siyasi məhbusların azad edilməsi tələblərini tam dəstəkləyir və bildirir ki, **Bəhruz Səmədov, İqbal Əbilov, Fazil Qasımov** və digər yüzlərlə vicdan məhbusu günahsız olaraq haqsız həbsdə saxlanılır. Onların dərhal və qeyd-şərtsiz azad

olunması Azərbaycanın beynəlxalq öhdəliklərindən, insan hüquqları və hüququn aliliyi prinsiplərindən irəli gəlir.

2023–2024-cü illərdə "**Abzas Media**" (8 nəfər - Ülvi Həsənli, Sevinc Vaqifqızı, Məhəmməd Kekalov, Hafiz Babalı, Nərgiz Absalamova, Elnarə Qasımova, Aysel Umudova, Fərid Mehralızadə), "**Toplum TV**" (9 nəfər - Akif Qurbanov, Ələsgər Məmmədli, Ruslan İzzətli, Müşfiq Cabbar, Əli Zeynalov, İlkin Əmrahov, Ramil Babayev, Fərid İsmayılov, Elmir Abbasov), "**Meydan TV**" (10 nəfər - Aynur Elgünəş (Qənbərova), Natiq Cavadlı, Şəmşad Ağa (Ağayev), Aytac Tapdıq (Əhmədova), Aysel Umudova, Ramin Deko (Cəbrayılzadə), Xəyalə Ağayeva, Fatimə Mövlamlı, Nurlan Libre (Qəhrəmanlı), Ülvi Tahirov), "**Demokratik.az**" saytı (Osman Nərimanoğlu Rzayev), "**Hürriyyət TV**" (Vüqar Məmmədov) və digər müstəqil media qurumlarının əməkdaşlarının həbsi, həmçinin xarici media qurumlarının (**Azadlıq Radiosu, Amerikanın Səsi, Bloomberg, BBC Azərbaycan**) akkreditasiyasının ləğvi, ölkədə **informasiya blokadası** yaratmaq məqsədli addım kimi dəyərləndirir.

Azərbaycan Xalq Parlamenti Azərbaycan məmurlarına qarşı sanksiya tələblərini müdafiə edir və Qətnamədə insan hüquqlarının kobud şəkildə pozulmasında məsuliyyəti olan Azərbaycan rəsmilərinə qarşı sanksiyaların tətbiqi çağırışını tam dəstəkləyir və insan hüquqları pozuntularına görə fərdi məsuliyyət prinsipinin beynəlxalq səviyyədə tətbiq olunmasını zəruri hesab edir.

Azərbaycan Xalq Parlamenti Avropa İttifaqının rəhbər strukturlarını qətnamənin icrasına ciddi yanaşmağa çağırır. Biz Avropa Komissiyasını, Avropa İttifaqı Şurasını, həmçinin üzv dövlətləri bu qətnamənin sadəcə siyasi bəyanat kimi qalmamasına, konkret siyasi, hüquqi və diplomatik tədbirlərlə dəstəklənməsinə çağırırıq. Azərbaycanda repressiyaların dayandırılması, demokratik azadlıqların təmin olunması və siyasi məhbusların azad edilməsi üçün real təzyiq mexanizmlərinə ehtiyac var.

İnsan hüquqlarının qorunması, demokratik institutların bərpası və siyasi məhbus probleminin həlli Azərbaycanda hüquqi dövlətin qurulmasının əsas şərtidir. Bu istiqamətdə beynəlxalq həmrəylik və dəstək bizim üçün olduqca dəyərlidir.

Xatirə Cəbrayılova

**Azərbaycan Xalq Parlamentinin Sədri**

20.12.2025